# İSGƏNDƏROV ELTUN XALƏDDİN OĞLU



21 oktyabr 1990-cı ildə Samux rayonunun Əhmədbəyli kəndində anadan olmuşdur. O, 1997-ci ildə Əhmədbəyli kənd orta məktəbinin birinci sinfinə getmiş, 2007-ci ildə orta təhsilini başa vurmuşdur. 2008-ci il oktyabrın 22-də Samux rayon Hərbi Komassarlığı tərəfindən həqiqi hərbi xidmətə çağırılmışdır. Eltun üç ay Azərbaycan Respublikasının Sərhəd Qoşunlarının ”N” saylı hərbi hissəsinin təlim mərkəzində təlim keçdikdən sonra Cəlilabad rayonunun Göytəpə şəhərindəki "N” saylı hərbi hissədə həqiqi hərbi xidmətini davam etdirmişdir. Xidmət etdiyi dövrdə özünü nümunəvi əsgər kimi göstərmiş, Dövlət Sərhəd Xidmətinin komandanlığı tərəfindən ailəsinə ’’Təşəkkür məktubu” göndərilmiş, döş nişanı ilə təltif edilmişdir. Eltun İsgəndərov 18 iyun 2009-cu il tarixində dövlət sərhəddini pozan bir qrup cinayətkarla mübarizə zamanı qəhrəmancasına həlak olmuşdur. Samux rayonunun Əhmədbəyli kənd qəbristanlığında dəfn olunmuşdur. Subay idi. Azərbaycan Respublikası Prezidentinin 25 iyun 2009-cu il tarixli 349 saylı Fərmanı ilə İsgəndərov Eltun Xaləddin oğlu ölümündən sonra Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülmüşdür.